**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SƏRDAR ƏSƏDİN YARADICILIĞINDA ŞƏXSİYYƏT, YADDAŞ VƏ DÜNYA KONSEPTLƏRİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Natella Zakir qızı Quliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Avrasiya Universitetinin "Azərbaycan və dünya ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Seyfəddin Gülverdi oğlu Rzayev** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Elman Hilal oğlu Quliyev** |
| | filologiya elmləri doktoru, professor<br>**Vaqif Əziz oğlu Yusifov** |
| | filologiya elmləri doktoru, dosent<br>**Leyla Kamran qızı Məmmədova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>__________________ | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**Rafael Baba oğlu Hüseynov** |
| Dissertasiya şurasının elmi katibi:<br>__________________ | filologiya üzrə fəlsəfə doktoru<br>**İlhamə Mürsəl qızı Gültekin** |
| Elmi seminarın sədri:<br>__________________ | filologiya elmləri doktoru, professor<br>**Cəlil Qərib oğlu Nağıyev** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsr Azərbaycan poetik düşüncə tarixində silinməz izlər qoyan, özünəməxsus bədii üsluba sahib Sərdar Əsədin (Sərdar Əsədov) (1929-1975) yaradıcılığına həsr olunan bu dissertasiya işinin problemi aktual mövzunu əhatə edir. Mövzunun aktuallığı ilk növbədə o amillə müəyyənləşir ki, Azərbaycan poeziya məkanına keçən əsrin 50-ci illərində şeir yaradıcılığı ilə qədəm qoymuş Sərdar Əsəd qısa ömrü çərçivəsində məzmun, forma və kəmiyyət baxımından çox zəngin bədii irs yaratmağa nail olmuşdur. Onun şeirləri tez bir zamanda filoloji fikrin diqqətini cəlb etmiş, müasiri olduğu ədəbi tənqid S.Əsədin simasında Azərbaycan poeziyasına yeni bədii nəfəsin gəldiyini, şeirlərində novatorluq təmayülünün açıq şəkildə müşahidə olunduğunu, Azərbaycan poeziyasının əsrləri əhatə edən ənənələrini müasir poetik axtarışlarla böyük istedad və ustalıqla qovuşdurduğunu qeyd etmişdir.

S.Əsədin yaradıcılığında iki aydın xəttin üzvi şəkildə qovuşması açıq şəkildə müşahidə olunur: şeir yaradıcılığında daim müasirliyə can atmaq və eyni zamanda milli bədii-estetik və mənəvi-əxlaqi dəyərlərdən uzaq düşməmək. Bu cəhətdən, sənətkar hər bir sovet şairi kimi "məzmunca – sosialist, formaca – milli" prinsipinə əsaslanan sosializm realizmi yaradıcılıq metodunun bədii-ideoloji məkanında yaşayıb-yaratmağa məhkum olsa da, milli-mənəvi dəyərlərdən uzaq düşməyə cəhd etmir, sovet gerçəkliklərini tərənnüm etmək məcburiyyəti fonunda milli gerçəklikləri, xalqımızın milli simasını, onu minillər boyunca bir xalq olaraq yaşadan dəyərləri də təsvir və tərənnüm etməyə çalışmışdır. Keçən əsrin stalinizm epoxasının bütün qanlı ruhunu özündə əks etdirən 50-ci illərində yaradıcılıq səhnəsinə gəlmiş, bu onilliyin Əli Kərim, Qulu Xəlilov, Əlfi Qasımov, Tofiq Mütəllibov, Fikrət Sadıq və s. kimi ədəbi nəslinin nümayəndələrindən olmuş sənətkarın poetik ruhu 60-cı illərin "nəfəs genliyində" daha da coşmuş və o, 60-70-ci illərdə təkcə Azərbaycan poeziyasının deyil, bütövlükdə nəsr, dramaturgiya və publisistikanın (çap olunmuş və olunmamış) dəyərli nümunələrini yaratmaqla özündən sonra zəngin bir irs qoyub getmişdir.

Azərbaycan ədəbi mühitində şair kimi tanınmış S.Əsəd eyni zamanda nəsr yaradıcılığı, publisistika, tərcümə və elmi-filoloji yaradıcılıqla da məşğul olmuşdur. Yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı və ədəbi mühiti tarixində özünəməxsus yer tutan Sərdar Əsədin yaradıcılığı ayrı-ayrı elmi və publisistik məqalələrin mövzusu olsa da, bu geniş yaradıcılıq fakturası həm özünün ümumi ədəbi mənzərəsi, həm də daxili janr, məzmun, forma, üslub əlvanlığı baxımından indiyə qədər monoqrafik tədqiqatın mövzusu olmamışdır.

Tədqiqatın probleminin aktuallığının ən əhəmiyyətli tərəflərindən biri Sərdar Əsəd yaradıcılığının mövzu və ideya baxımından bugünlə səsləşməsi, müasir oxucunun bədii-estetik, poetik-milli tələbat səviyyəsində olmasıdır. Sənətkarın zahiri baxımdan sosializm realizmi yaradıcılıq metodunun estetik-ideoloji tələblərini əks etdirən əsərlərinin böyük əksəriyyətinin alt qatının millliklə, azərbaycançılıqla, milli kimliyi var edən dəyərlərlə sıx şəkildə bağlılığı vardır. Millətin problemlərinin heç vaxt rəsmi mətbuatda öz əksini tapmadığı, lakin millətsevər ziyalılar mühitində aktual olan məsələlər S.Əsədi daim düşündürmüş, narahat etmiş, öz xalqının milli-mənəvi dəyərlərinə bütün varlığı ilə bağlı olan şair bu məsələləri poeziyasının alt qatına yerləşdirmiş, oxucuları ayıltmağa, milli varlığımızı bütün mümkün vasitələrlə qorumağa çalışmışdır. Bu cəhətdən, onun ana dilinə, ana təbiətə, Azərbaycan-türk milli kimliyinin simvolları olan etnoqrafik reallıqlara həsr etdiyi şeirləri bü gün də öz əhəmiyyətini itirməmişdir. Lakin birmənalı şəkildə təsdiq etmək olar ki, sənətkarın yaradıcılığında mühüm yer tutan “Şuşa şüştəri” adlı şeirlər silsiləsi onun Azərbaycan poeziyasının tarixində əbədi olaraq yaşamasına haqq verən çox ciddi bədii-estetik hadisədir. Sovet dövrü boyunca ermənilərin hər vasitə ilə Azərbaycan torpaqlarına, mədəniyyətinə, etnik genefonduna, tarixi-mədəni dəyərlərinə qarşı fasiləsiz şəkildə yürütdükləri mənəvi terror, torpaq mənimsəmə və s. kimi xain siyasəti bir milli ziyalı kimi S.Əsədi dərindən narahat etmiş və o, “Şüşa şüştəri” adlı şeirlər silsiləsi ilə bu siyasətə qarşı, demək olar ki, açıq şəkildə cavab vermişdir. Həmin şeirlərin mərkəzində milli mədəniyyətimizin simvolu olan Şuşa obrazının durması təsadüfi olmayıb, ermənilərin Azərbaycana və

Qarabağa qarşı yürütdükləri təcavüzkar siyasətin ifşasının milli simvolu rolunu oynamışdır. Azərbaycan xalqının başda müzəffər lider İlham Əliyev olmaqla erməni işğalçılarına qarşı apardıqları qalibiyyətli mübarizənin simvolunun Şuşa olması Sərdar Əsədin nə qədər uzaqgörən bir şəxsiyyət olduğunu təsdiq etməklə yanaşı, onun poeziyasının öyrənilməsi aktuallığını da inkarolunmaz şəkildə təsdiqləyir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə qeyd olunmalıdır ki, S.Əsədin ömür yolu, yaradıcılığı, nakam taleyi haqqında Qəzənfər Kazımov, Vaqif Yusifli, Əli Rza Xələfli, İsmayıl Kazımov, Davud Nəsib, Əlibala Zalov, Cəlil Cavanşir, Tural Balabəyli, Flora Xəlilzadə, Savalan Fərəcov, Hüseynbala Mirələmov, Hafiz Rüstəm, Tahir Kazımov, Şakir Albalıyev, Fariz Çobanoğlu və başqaları kimi müəlliflər dəyərli yazılar yazmışlar. Bəziləri elmi, bəziləri publisistik (əsasən, xatirə) xarakterli olan bu yazıların hamısında S.Əsəd şəxsiyyəti və yaradıcılığı haqqında bu gün bizim üçün elmi əhəmiyyət kəsb edən çox sayda maraqlı fikirlər və faktlar vardır. Ancaq bütövlükdə götürdükdə sənətkarın yaradıcılığı nə şəxsiyyət, yaddaş və dünya konseptləri, nə də ümumən bir küll halında indiyədək heç bir tədqiqatda əhatə olunmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini S.Əsədin qələmindən çıxmış, demək olar ki, bütün bədii-ədəbi yaradıcılıq nümunələri təşkil edir. Buraya onun keçən əsrin 50-70-ci illərində yazdığı çoxlu sayda şeirləri, poemaları, nəsr əsərləri (hekayələri), dramları, publisistik məqalələri (əsasən, oçerkləri) və filologiyaya dair elmi əsərləri daxildir. Mövcud dissertasiya ədibin yaradıcılığına həsr olunmuş ilk monoqrafik əsər olduğu üçün tədqiqata S.Əsədin çap olunmuş yaradıcılığı ilə yanaşı, hazırda övladları tərəfindən çox böyük diqqət və qayğı ilə qorunmaqda olan arxivindəki zəngin materiallar da cəlb olunmuşdur.

Tədqiqat işinin predmetini S.Əsədin ömür və yaradıcılıq yolunun öyrənilməsi, mövcud filoloji fikrin ona verdiyi qiymətin dəyərləndirilməsi, sənətkarın poema, nəsr, dram, lirik janrlarındakı əsərləri, publisistik və elmi-filoloji yaradıcılığını şəxsiyyət, yaddaş və dünya konseptlərinin müasir filoloji prinsip və normalar əsasında təhlil edilməsi kimi məsələlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın qarşısında duran əsas məqsəd Sərdar Əsədin yaradıcılığını çap olunmuş və olunmamış əsərləri əsasında şəxsiyyət, yaddaş və dünya konseptləri baxımından öyrənilməsidir. Həmin məqsədin həyata keçirilməsi aşağıdakı vəzifələri qarşıya qoymuşdur:

– Çap olunmuş mövcud materiallar, şifahi xatirələr və s. əsasında Sərdar Əsədin ədəbi bioqrafiyasının təsviri;

– S.Əsədin ədəbi şəxsiyyəti və yaradıcılığı haqqında çap olunmuş filoloji və publisistik xarakterli yazılar əsasında onun yaradıcılığının tədqiq tarixini öyrənmək və sənətkarın Azərbaycan ədəbiyyatı tarixindəki mövqeyini müəyyənləşdirmək;

– Sənətkarın çoxsaylı şeirləri əsasında onun lirikasını məzmun, forma, janr, ideya, bədii motiv, üslub, yaradıcılıq axtarışları, milli-mənəvi dəyərlər, dövrün ideoloji reallıqları və s. baxımından təhlil etməklə S.Əsədin şair kimliyinin bədii-estetik və keyfiyyət miqyaslarını müəyyənləşdirmək;

– Şairin poemalarını bədii məzmun, ideya və forma baxımından təhlil edərək, onun poetik lövhələr yaratmaq bacarığının bədii-estetik imkanlarının dəyərini müəyyən etmək;

– Sənətkarın nəsr əsərlərinin təhlili əsasında onun epik təxəyyülünün bədii-estetik xüsusiyyətlərini müəyyənləşdirmək;

– Sərdar Əsədin dram əsərlərini təsvir və təhlil etməklə, onun gerçəkliyi dram janrının qəlibləri əsasında bədiiləşdirmək bacarıq və imkanlarının dəyərləndirilməsi və həmin əsərlərin müasir dövrün teatr-səhnə imkanları baxımından aktuallığının müəyyənləşdirilməsi;

– Ədibin çoxsaylı publisistik əsərlərinin məzmun, ideya və sənətkarlıq xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

– Sərdar Əsədin filoloji əsərlərinin məzmun və elmi axtarışlar baxımından təhlili və bu əsasda həmin əsərlərin müasir filologiya baxımından aktuallığının dəyərləndirilməsi və s.

**Tədqiqat metodları.** S.Əsəd həm cismani ömrünü, həm də ədəbi ömrünü bütövlükdə XX əsr sovet epoxasının içərisində yaşamışdır. Bu baxımdan, sənətkarın yaradıcılığını bütövlükdə artıq tarixi epoxaya çevrilmiş sovet dövründən kənarda götürüb təhlil etmək mümkün olmadığı üçün tədqiqatda ilk növbədə *tarixi,*

*müqayisəli* və eyni zamanda təsviri və bir sıra hallarda *tipoloji* təhlil metodlarından istifadə olunmuşdur.

S.Əsədin yaradıcılığına *tarixi-ədəbi yanaşma* ilk növbədə onun mənsub olduğu zamanın epoxal xarakteri ilə müəyyənləşir. Sovet epoxası ədəbi baxımdan sərt üsullarla həyata keçirilmiş, son dərəcə ideolojiləşdirilmiş bədii-estetik prinsiplərə malik dövr idi. Bu cəhətdən, 50-ci illərin sərt ədəbi qadağalar və çərçivələri dövründə yazıb-yaratmağa başlamış, daha sonra 60-70-ci illərin "nəfəs genliyində" ilhamı coşub-daşmış S.Əsədin yaradıcılığının təhlili ona ilk növbədə tarixi-ədəbi baxımdan yanaşmanı zərurətə çevirir.

Sənətkarın yaradıcılığına müqayisəli yanaşma onun 50-70-ci illər poeziyasındakı rolu və mövqeyinə müasiri olduğu ədəbi zamanla müqayisədə qiymət verməyi tələb edir. Bu barədə S.Əsəd haqqındakı filoloji və publisistik məqalələrdə maraqlı fikirlər vardır. Həmin fikirlər də şairin yaradıcılığına müqayisəli yanaşmanın zərurət olduğunu ortaya qoyur.

S.Əsədin yaradıcılığının əhəmiyyətli bir hissəsi ümumiyyətlə çap olunmamış və əlyazma halında qalmışdır. Bu da öz növbəsində müəllifin yaradıcılığına təsviri yanaşmanı aktuallaşdırır.

Tədqiqatda bir sıra hallarda tipoloji yanaşmanın həyata keçirilməsi S.Əsədin həm bir ədəbi şəxsiyyət kimi bədii təxəyyül və istedad imkanlarının tipik xüsusiyyətlərinin, həm də yaradıcılığının tipik keyfiyyət və xüsusiyyətlərinin müəyyənləşdirilməsinə xidmət edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində aşağıdakı müddəalar əldə olunmuş başlıca qənaətlər kimi əsaslandırılır:

1. Keçən əsrin 50-ci illərində yaradıcılığa başlamış, öz şeirləri ilə tez bir zamanda ədəbi mühitin diqqətini cəlb etmiş, 60-70-ci illər Azərbaycan poeziyasının məna və məzmun baxımından zənginləşməsində, poeziyamızda milli-mənəvi ruhun yaşadılmasında xüsusi yeri olan Səradr Əsəd nə öz sağlığında, nə də sonrakı dövrdə layiqli qiymətini almamışdır.

2. S.Əsədin poeziyasına və şəxsiyyətinə qarşı sağlığında ögey münasibətin bəslənilməsi, bir tərəfdən, bədii yaradıcılıqla məhsuldar

şəkildə məşğul olmasına qısqanc münasibətlə bağlı idisə, o biri tərəfdən, milli əqidəsi ilə bağlı olmuşdur.

3. Sənətkarın yaradıcılığı ideya-məzmun istiqamətləri, bədii-estetik prinsip və normalar, forma-üslub xüsusiyyətləri baxımından onu 60-cılar adlanan ədəbi-bədii istiqamətin nümayəndəsi hesab etməyə tam şəkildə imkan verir.

4. Erkən gəncliyindən bədii yaradıcılıqla məşğul olan S.Əsədin əsərləri forma baxımından sosializm realizmi metodunun qəliblərini özündə əks etdirsə də, məzmun baxımından milli dəyərlərə əsaslanır. Ədib bu cəhətdən heç bir halda sovet ideologiyasının ədəbiyyatdakı kor-koranə təbliğatçısı olmamış, həmin dövrdə bədii yaradıcılığın yeganə ifadə forması olan sosializm realizmi metoduna xas obrazlaşdırma modelinin verdiyi imkan çərçivəsində Azərbaycan insanının milli kimliyini təcəssüm etdirməyə çalışmışdır.

5. Zəngin lirik yaradıcılığa malik olan ədib həm də eyni zamanda nəsr, dramaturgiya, publisistika, bədii tərcümə ilə yanaşı filoloji yaradıcılıqla məşğul olsa da, ədəbi kimlik stixiyası baxımından şair olaraq qalmışdır. Bu cəhətdən, şairənə-romantik üslub onun dram, nəsr və oçerk yaradıcılığında da özünü açıq şəkildə göstərir.

6. Yaradıcılığı sovet quruculuq lövhələri, sovet müharibə yaddaşı və s. kimi ideoloji mövzularla da bağlı olan S.Əsədin xüsusilə şeir, tərcümə və filoloji yaradıcılığı müasir dövr baxımından əhəmiyyətini itirməmişdir. Dövrün ideoloji ruhunu əks etdirən əsərləri bu gün yalnız ədəbi qaynaq əhəmiyyəti daşısa da, sənətkarın yaradıcılığının böyük bir qismi müasir zamanımız baxımından dərin aktuallığa malikdir.

7. Təqdim olunan dissertasiyada S.Əsəd yaradıcılığı şəxsiyyət, yaddaş və dünya konseptləri baxımından bütövlükdə tədqiqata cəlb olunsa da, sənətkarın bədii irsi gələcəkdə milli yaddaş, milli kimlik baxımından tədqiqatlara cəlb olunması istiqamətlərində zəngin material verir.

**Tədqiqatın elmi yenilikləri.** Tədqiqatda problemlə bağlı bir çox elmi yeniliklər əldə edilmişdir. Onlar, əsasən, aşağıdakıları əhatə edir:

1. Yaradıcılıq fəaliyyəti keçən əsrin 50-70-ci illərində gerçəkləşmiş Sərdar Əsədin bədii-ədəbi yaradıcılığı ilk dəfə bu dissertasiyada bütün bədii və ədəbi janr əhatəsi baxımından tədqiqata cəlb olunaraq Azərbaycan filoloji fikrinin fakturası kimi dəyərləndirilmişdir.

2. S.Əsədin bütün yaradıcılığı ilk dəfə bu tədqiqat işində şəxsiyyət, yaddaş və dünya konseptləri baxımından təhlil edilərək, müəllifin yaradıcı subyekt olaraq müasir Azərbaycan ədəbi-bədii düşüncə, xüsusilə poeziya tarixində yeri və rolu müəyyənləşdirilmişdir.

3. Şairin lirikasının şəxsiyyət konsepti baxımından öyrənilməsi nəticəsində onun sənətkar şəxsiyyətinin başdan-başa şeirlə yoğrulması, şairlik istedadının S.Əsədin yaradıcılığının bütün janrlarında fərdi poetik üslub səviyyəsində özünü göstərməsi, müəllifin şair "mən"inin bədii məzmun və ideya hüdudlarının bütün hallarda sənətkarın milli kimliyinə sıx bağlı olması kimi özünəməxsus cəhətlər aşkarlanmışdır.

4. Tədqiqatda "yaddaş" fenomeninin S.Əsəd lirikasının milli-mənəvi və bəşəri-insani enerji qaynağını təşkil etməsi, onun bir sənətkar kimi heç vaxt milli və şəxsi yaddaşdan ayrı düşməməsi, milli-etnik yaddaş, folklor-etnoqrafik yaddaş, ana dili yaddaşı kimi konseptlərin onun poeziyasında sürəkli motivlər şəklində fasiləsiz bədii-estetik məna xətlərini təşkil etməsi kimi cəhətlər üzə çıxarılmışdır.

5. Zəngin poema yaradıcılığına malik olan S.Əsədin bu janrda olan əsərlərinin mövzu-ideya baxımından, əsasən, qurucu insan şəxsiyyətinin mənəviyyat dünyası, uşaq dünyası, insan-dünya münasibətləri, müharibə yaddaşının mənəvi yaşantıları kimi məna istiqamətlərini əhatə etməsi, şairin yaratdığı obrazların zahirən sovet insanı üçün xarakterik olan bədii-estetik cizgiləri əks etdirməklə bərabər, mənəvi-psixoloji kimlikləri etibarilə milli insan surətləri olması və S.Əsədin bütün poema qəhrəmanlarının milli xarakter cizgilərinə malik olması müəyyənləşdirilmişdir.

6. S.Əsədin, əsasən, əlyazma halında qalmış nəsr əsərlərinin qəhrəmanları xarakterik sovet cizgiləri ilə bərabər, Azərbaycan

insanının mental-mənəvi, əxlaqi-psixoloji keyfiyyətlərini də özündə əks etdirməsi aşkar edilmişdir.

7. Publisistik yaradıcılığı, əsasən, oçerk janrında reallaşdırılmış ədibin qəhrəmanlarının böyük əksəriyyətinin sovet zəhmət insanları olmasına baxmayaraq, bu əsərlərin əsas iki bədii-estetik xüsusiyyətinin (oçerklərin bədii ricətlərlə zənginliyi və oçerk qəhrəmanlarının milli-mənəvi kimliyinin təcəssümü) olduğu irəli sürülmüşdür.

8. Müəyyənləşdirilmişdir ki, şairin tərcümə yaradıcılığında Azərbaycan dilinin poetik gözəlliklərindən, üslubi imkanlarından böyük ustalıqla istifadə bu əsərlərin bu günə qədər öz bədii-estetik təravətini saxlamasına səbəb olmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi həm nəzəri baxımdan, həm də praktiki baxımdan əhəmiyyət daşıyır.

Tədqiqatın nəzəri əhəmiyyəti onda əldə olunmuş yeniliklərdən XX əsr poeziyasına dair yazılacaq tədqiqat işlərində nəzəri qaynaq kimi istifadə edilmə imkanları ilə ölçülür.

Tədqiqatın praktiki əhəmiyyəti isə ondan Azərbaycan ədəbiyyatı tarixinə dair müxtəlif materialların hazırlanmasında, ali məktəblərin filologiya fakültələrində XX əsr Azərbaycan poeziyasının, o cümlədən xüsusi kursların tədrisində əlavə dərs vəsaiti kimi istifadə edilmə imkanları ilə müəyyənləşir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın ümumi məzmunu, başlıca nəticələri, yenilikləri müəllifin Azərbaycan Respublikasında və xarici ölkələrdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərdə çap olunmuş, o cümlədən yerli və beynəlxalq konfrans və simpoziumlarda məruzə edilmişdir.

Dövri-elmi nəşrlərin daxil olduğu beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan "Türklerin Dünyası" və "Colloquium-journal" jurnallarında iki məqalə çap edilmişdir.

**Tədqiqat işinin yerinə yetirildiyi təşkilatın adı.** İş Bakı Avrasiya Universitetinin "Azərbaycan və dünya ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Tədqiqatın ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil (12 paraqraf), nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Giriş 16 092, I fəsil 73055, II fəsil 61 045, III fəsil 67 550 və Nəticə 12 508 şərti işarə olmaqla işin ümumi həcmi 230 250 şərti işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın **"Giriş"** bölümündə mövzunun aktuallığı, öyrənilmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yenilikləri, nəzəri və praktiki əhəmiyyəti göstərilmişdir.

Tədqiqatın **"Sərdar Əsədin ömür və yaradıcılıq yolu filoloji və publisistik fikir yaddaşında"** adlanan birinci fəsli üç paraqrafdan ibarətdir. Bu fəslin "Sənətkarın ömür yolu" adlanan birinci paraqrafında göstərilir ki, XX əsr Azərbaycan ədəbiyyatının istedadlı və tanınmış nümayəndələrindən olmuş Sərdar Əsədin poeziyasını və ümumən bütün yaradıcılığını onun bədii bioqrafiyası saymaq olar. S.Əsəd 1929-cu il avqustun 29-da Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olmuşdur. O, 1948-ci ildə Soltanlı kəndində orta məktəbi bitirdikdən sonra Ağdam İkiillik Müəllimlər İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olmuş və oranı fərqlənmə diplomu ilə bitirmişdir (1951). S.Əsəd təhsilini davam etdirərək, 1955-ci ildə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsindən məzun olmuşdur. 30 iyun 1975-ci ildə (46 yaşında) ömrünü intiharla başa vuran S.Əsəd kifayət qədər zəngin məzmuna malik bədii irs qoyub getmişdir.

S.Əsəd haqqında yazılardan[1] məlum olur ki, sənətə keçən əsrin 50-ci illərində şeirlə başlamış şair tez bir zamanda diqqəti cəlb etmiş, həm saf, səmimi və təravətli şeirləri, həm də istiqanlı xarakteri və milli dəyərlərə bağlılığı ilə dövrünün milli əqidəli ziyalılarının

[1] Xəlilzadə, F. Sərdar Əsəd intihar edəndən sonra Məmməd Araz özünə gələ bilmirdi // Kaspi. – 2013, 13 iyul. – s. 7; Fərəcov, S. Şair ürəyinin çırpıntıları // Mədəniyyət. –2010, 02 iyul. – s. 4; Kazımov, T. "Balaca suçu"nun xatirələri // Kredo. – 2004, 31 dekabr. – s. 7; Xələfli, Ə.R. Təlatümlər qəlbimdədir // Kredo. – 2004, 17 dekabr. – s. 1; Dirili, Y. Sərdar Əsəd yaddaşımda narazı şair kimi yaşayır // Kredo. – 2009, 01 yanvar. – s. 11; Yusifli, V. Sərdar Əsəd: sevgidən intihara: [Elektron resurs]/ –Bakı: 2012. – https://manera.az/nesr/9801-serdar-esed-sevgiden-intihara.html

rəğbət və dostluğunu qazanmışdır. Bütün fiziki və yaradıcı ömrü sovet epoxasına təsadüf edən *“şair öz yaradıcılığında sosializm realizmi yaradıcılıq metodunun sərt məcburi prinsiplərinə görə sovet quruculuğunu tərənnüm etsə də, ömrünün sonuna qədər bütün varlığı ilə milli-mənəvi dəyərlərə bağlı qalmışdır*”[2].

Birinci fəslin “Sərdar Əsəd şəxsiyyəti və yaradıcılığı filoloji və publisistik fikir tarixində” adlanan ikinci praqrafında tədqiqata cəlb olunmuş materialların təhlili göstərir ki, S.Əsəd haqqında sağlığında müəyyən kiçik yazılar yazılsa da, *“sənətkarın əsərlərinə ciddi qiymət sonralar verilmişdir”*[3]. Həmin materiallardan aydın olur ki, S.Əsəd şeirdə *özünəməxsus ifadə tərzinə malik şair olmuş*[4], həyat həqiqətlərinin real təsviri ilə, *həyatın nəfəsini poeziyaya gətirməklə yeni şeir yaratmağa çalışmış*[5], orijinal üsluba malik olmuş şeirlərində *təbiətlə ana üzvi vəhdətdə verilmiş*[6], *az ömründə yaratdıqları ona əbədi ömür qazandırmışdır*[7]. *“Kiçik həcm çərçivəsində məzmun baxımından böyük məna yarada bilmiş*”[8] şairin poeziyası həmkarları tərəfində yüksək şəkildə qiymətləndirilsə də, həmin qiymət dövrün ədəbi tənqidində öz ifadəsini tapmamışdır[9].

Tədqiqatın birinci fəslinin “S.Əsədin ədəbi kimliyinə keçən əsrin 50-70-ci illər ədəbi dövrləri kontekstində baxış” adlanan üçüncü paraqrafında sənətkarın yaradıcılığına 50-70-ci illər ədəbi prosesi, nəzəri məktəb və cərəyanlar haqqındakı tədqiqatlar işığında yanaşma göstərir ki, o, 60-70-ci illərdən özünü göstərən modernist ədəbi prosesinin bilavasitə içərisində idi. Yaradıcılıqlarını bu gün

---

[2] Quliyeva, N.Z. Sərdar Əsədin ömür yolunun mənəvi-psixoloji cizgiləri // –Bakı: Qərbi Kaspi universitetinin Elmi xəbərləri, – 2022. №3, – s. 22-27.
[3] Xələfli, Ə.R. Təlatümlər qəlbimdədir // Kredo. – 2004, 17 dekabr. – s. 8.
[4] Nəsib, D. Torpağa, elə bağlı // Ədəbiyyat və incəsənət. – 1980, 29 avqust. – s. 3.
[5] Kazımov, Q. Unudulmaz şair // Kredo. – 2004, 12 noyabr. – s. 3.
[6] Zalov, Ə. Əbədiyaşar Sərdar Əsəd şeirlərinə sevgi// Kredo. –2005, 12 mart. –s. 5.
[7] Fərzəli, Ə. Bir gecənin qonağı // Yaşayan Sərdar Əsəd (Şair Sərdar Əsəd haqqında ədəbi-publisistik qeydlər, xatirələr, təəssüratlar) – Bakı: Gənclik, – 2022. – s. 132.
[8] Albalıyev, Ş. Dağlara yazılan ömür // Kredo. – 2005, 03 fevral. – s. 7.
[9] Кулиева, Н. Личность и творчество Азербайджанского поэта XX века Сердара Еседа в филологической и публицистической памяти // - Польша: Colloquium yournal. – 2023. – с. 31-36.

modernist ədəbiyyat kimi səciyyələndirmək mümkün olan Ə.Kərim, F.Sadıq, F.Qoca, Ə.Salahzadə və başqa sənətkarlar S.Əsədin, belə demək mümkünsə, hər gün görüşdüyü, yaxından ünsiyyətdə, dostluq etdiyi, milli əqidə və ədəbi məfkurəsini bölüşdüyü yaradıcı simalar idi. Bu cəhətdən, "Azərbaycan modernizmi" üçün xarakterik olacaq bütün əlamətlər S.Əsəd yaradıcılığında parlaq şəkildə öz əksini tapmışdır[10].

Tədqiqatın **"Sərdar Əsədin lirikasinda müəllif şəxsiyyəti, yaddaş və dünya konseptlərinin bədii-estetik inikası"** adlanan ikinci fəsli üç paraqrafdan ibarətdir. Bu fəslin üç bənddən ibarət olan "Sərdar Əsədin lirikasında müəllif şəxsiyyəti konsepti"adlanan birinci paraqrafında müəyyənləşdirilmişdir ki, S.Əsədin poeziyasında onun yaradıcılığının ilk çağlarından tutmuş "son anına" qədər davam edən poetik məna xətlərindən biri sənətkarın şeirlə nəfəs alması, şeirin onun varlığının, həyatının, sənətkar şəxsiyyətinin bütün mənasını təşkil etməsidir:

*İndi anlayıram ki,*
*Gözəl şeir yazanlar*
*Sanki misraları yox,*
*Ürək çırpıntısını*
*Kağız üstünə tökür*[11].

Hər bir bədii əsər bütün hallarda müəllif "mən"inin yaşantılarını əks etdirdiyi kimi, S.Əsədin də yaratdığı obrazlar onun şair "mən"inin bədii məzmunu və hüdudlarını inikas edir. Sənətkarın lirik qəhrəmanlarının içərisində bilavasitə "mən" adı altında keçən bir obraz da var: bu, riyasız-boyasız şair şəxsiyyətdir:

*Yanıqlı əllərlə düyülmərəm mən,*
*Alınma geymətək geyilmərəm mən,*
*Dəmirtək yumşalıb əyilmərəm mən,*
*Poladtək sınaram bir an içində*[12].

[10] Quliyeva, N.Z. Sərdar Əsədin yaradıcılıq dünyası // IV Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu, – Niğde, – 26-28 aprel, – 2017. c. I, – s. 605-608.
[11] Əsəd, S. Şairin arzuları // – Bakı: Azərbaycan. –1955. № 2, – s. 11. Əsəd S. Yenə yaşayıram, mən yenə sağam: [3 cilddə] / S.Əsəd. – Bakı: Şərq-Qərb, – c. 1. – 2020. – s. 53.

İkinci fəslin üç benddən ibarət olan "Sərdar Əsədin lirikasında yaddaş konsepti" adlı ikinci paraqrafında göstərilir ki, sənətkarın yaddaşı ilk növbədə dünyanı tanımaqdan keçmişdir. Bu cəhətdən, yaddaş onun poeziyasının hərəkətverici qüvvəsi, enerji qaynağıdır. Yaddaşın hər bir nöqtəsi, hər bir titrəntisi onun poeziya dünyasında bir şeirin yaranmasına səbəb olmuşdur:

*Həyətində durduğum,*
*Sahibinə əl verib*
*Əhvalını sorduğum*
*Bu ev tanışdır mənə,*
*Ürəyim doldu yenə...*[13]

S.Əsədin poeziya aləmin qədəm qoyduğu 50-ci illər Sovet İttifaqının həyatında ən mürəkkəb dövr idi. Bu cəhətdən, sənətkarın yaradıcılığında 50-70-ci illərin siyasi-ictimai, ədəbi-bədii, estetik-ideoloji gerçəklikləri də inikas olunmuşdur. Şairin qəhrəmanı harada olursa-olsun o, bütün sovet siyasi görüşləri ilə bərabər tipik azərbaycanlıdır: milli həyat və məişət tərzinə, milli əxlaq və davranış normalarına, vətənin təbiətinə bağlı insandır.

Şair Azərbaycana dəlicəsinə vurğun olan insan idi. Bu cəhətdən, onun yaradıcılığında onlarla şeirdən ibarət olan "Şuşada şüştər" şeirlər silsiləsi bugünün, Qarabağ savaşının reallıqları fonunda xüsusi elmi aktuallıq kəsb edir:

*Aynasıdır səhərlər*
*Göyün güllü qəbəsi!*
*Şuşa – dağüstü şəhər,*
*Dağların üst mərtəbəsi*![14]

Şair Şuşanı gəzdikcə vətən torpağının hər daşı, hər qayası ona tarix danışmış, Vətən oğullarının igidliklərindən söhbət açmışdır. O, Ağa Məhəmməd Şah Qacarın qılıncını sındıran qayanın önündə fikrə

[12] Əsəd S. Yenə yaşayıram, mən yenə sağam: [3 cilddə] / S.Əsəd. – Bakı: Şərq-Qərb, – c.1. – 2020. – s. 169.
[13] Əsəd S. Yenə yaşayıram, mən yenə sağam: [3 cilddə] / S.Əsəd. – Bakı: Şərq-Qərb, – c. 1, – 2020, – s. 123.
[14] Əsəd, S. Yer ulduzu / S.Əsəd. – Bakı: Gənclik, – 1974. – s. 61.

dalmış, *"Azərbaycan insanının bütün gücünün, qüvvətinin bu qayalarda, daşlarda, dağlarda olduğunu anlamışdır"*[15].

S.Əsədin yaradıcılığında milli yaddaş konsepti həm də milli-etnoqrafik dəyərləri özündə əks etdirən obrazlar sistemi şəklində öz ifadəsini tapmışdır. *"Həmin obrazlar şairin yaradıcılığında milli məişətin dekorativ elementləri olaraq qalmır, poetik cəhətdən mənalandırılaraq Azərbaycan insanının mənəviyyat dünyasının üzvi elementləri kimi tərənnüm olunur"*[16].

Şair, sözün əsil mənasında, ana dilimizin vurğunu olan sənətkar idi. O, dilə, sadəcə, ünsiyyət vasitəsi kimi baxmır, onu xalqın tarixinin mənəvi yaddaş xəzinəsi hesab edirdi. Bu da təsadüfi deyildir. Çünki bir xalqın milli kimliyinin bütün keçmişi və bu günü onun dilində yaşadığı kimi, gələcəyi də dilin gələcəyinə bağlıdır; dilin varlığı – xalqın milli varlığıdır, dil yaşayacaqsa – xalqın da milli kimliyi daim var olacaqdır:

*Onunla sınayıb öz qüvvətini,*
*Ondan qanad alıb uçacağam mən.*
*Bu dildə eşqimi, məhəbbətimi*
*Gələn əsrlərə açacağam mən*[17].

İkinci fəslin bir bənddən ibarət olan "Sərdar Əsədin lirikasında dünya konsepti:təbiət dünyası və Azərbaycan obrazının bədii-estetik cəhətləri" adlı paraqrafında müəyyənləşdirilir ki, dünya şair üçün bir məkan kimi ana təbiətdən və Azərbaycandan ibarətdir. Ancaq bu, o, demək deyildir ki, *S.Əsədin poetik nəzərləri yalnız Azərbaycanla məhdudlaşır, sadəcə, şair üçün dünya bütün əzəməti, genişliyi və*

---

[15] Quliyeva, N.Z. Sərdar Əsədin "Şuşada şüştər" şeirlər silsiləsində milli yaddaş problemi // IV Beynəlxalq Novruz Konfransı, – Bakı: –18-21 mart, – 2021, – s. 543-550.

[16] Quliyeva, N.Z. Azərbaycan şairi Sərdar Əsədin yaradıcılığında milli-etnoqrafik obrazlar // V Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu, c. 1. – Almatı, – 11-13 Oktyabr, – 2018, – s. 497-500.

[17] Əsəd S. Yenə yaşayıram, mən yenə sağam: [3 cilddə] / S.Əsəd. – Bakı: Şərq-Qərb, – c. 1. – 2020. – s. 226.

*nəhəngliyi ilə məhz onun ana yurdundan – Azərbaycandan başlanır*[18].

Tədqiqatın **"Sərdar Əsədin poema, nəsr, dram, publisistika, tərcümə və elmi-filoloji yaradıcılığı"** adlanan üçüncü fəsli altı paraqrafdan ibarətdir. Bu fəslin "Sərdar Əsədin poema yaradıcılığında şəxsiyyət, yaddaş və dünya konseptlərinin bədii təcəssümü" adlı birinci paraqrafında göstərilir ki, sənətkarın həm kəmiyyət, həm də ideya-məzmun baxımından zəngin poema yaradıcılığı vardır. O, bütün bədii yaradıcılığı dövründə qırxdan yuxarı poema yazmış, bunlardan müəyyən bir qismi çap olunmuş, digər qismi əlyazma şəklində arxivində qalmışdır. Q.Kazımov bu əsərlərin əksəriyyətini qısa məzmunu və ideya-bədii xüsusiyyətləri baxımından təsvir etmiş, onların mövzu baxımından müharibədən sonrakı dövrün təsərrüfat quruculuğu, müharibə, ictimai-fəlsəfi, ailə-məişət, mənəvi-əxlaqi, uşaq mövzuları və s. ilə bağlı olduğunu göstərmişdir.

Tədqiqat göstərir ki, S.Əsədin poema yaradıcılığı ideya-məzmun baxımından qurucu insan şəxsiyyətinin mənəviyyat dünyasının tərənnümü, sənətkarın uşaq dünyası, insan və dünya konseptlərinin fəlsəfi-bədii, mənəvi-poetik təcəssümü, müharibə yaddaşının mənəvi yaşantıları kimi dörd əsas istiqaməti əhatə edir.

Müəllifin poema yaradıcılığında quruculuq, yaradıcı əmək, zəhmətlə dünyanı gözəlləşdirmək kimi mövzular aparıcı xətlərdən birini təşkil edir Bu, gənc şairin yaradıcılıq meydanına qədəm qoyduğu 50-ci illərin siyasi-ictimai, iqtisadi-mədəni həyatının ideoloji ruhu ilə bağlı idi. Bu baxımdan, sənətkarın "Topçağa su gəlir", "Yuxusuz gecələr", "Kürün suları", "Mavi gözlər", "Oğul", "Yadigar", "Şimşək", "Ömrün bir səhifəsi", "Yer ulduzu" kimi poemaları həyat, quruculuq, yaradıcılıq eşqi ilə aşıb-daşır. Sənətkar bu əsərlərdə Azərbaycan insanını təbiətlə həmahəng təsvir etmiş, onların mənəvi baxımdan bütövlüyünü yüksək bədii-estetik boyalarla canlandırmışdır.

[18] Quliyeva, N.Z. Sərdar Əsədin yaradıcılığında "Qarabağ təbiəti" motivləri // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitetinin xəbərləri, – 2021. №1, – s. 40-48.

S.Əsədin yaradıcılığında uşaqlıq xatirələri xüsusi yer tutur. Bu, özünü onun poemalarında da göstərir. Ədibin uşaqların həyatı, dünyası ilə bağlı irili-xırdalı "Balaca müdir", "Gecənin sirri", "Zəhmətsiz ortaq", "Bakının şeiriyyəti", "Validənin anası", "İnternat", "Dəstə gəzir Bakını", "Xatirə zəngi", "Qardaşlar", "Qar", "Meşə gözətçisi" kimi poemaları vardır. Sənətkarın yaratdığı uşaq obrazları sovet ideologiyasının uşaqlar üçün müəyyənləşdirdiyi oktyabryat, pioner kimi qəlib-obrazların göstəricilərini özündə əks etdirməli idi. Lakin S.Əsədin yaratmış olduğu uşaq obrazlarına bir küll halında nəzər salanda görürük ki, həmin surətlər "tipik sovet uşağının" obrazı olmaqla bərabər, həm də Azərbaycan xalqının milli-mənəvi dəyərlərini özündə təcəssüm etdirən, torpağa, yurda, vətənə, xalqa, ana dilinə və ana təbiətə bağlı olan Azərbaycan balalarıdır[19].

Sənətkarın "Sehrli yollar, "Həyat düyünləri", "Gülsüm", "Uçurum", "Lal Əli", "Gözəl", "Ağsaçlı Qafqaz", "İki hökm", "Qız anası", "Əbədi nəğmə", "Mavi nəğmələrin sahillərində", "Qarağacın şahlığı" kimi müxtəlif mövzularda olan poemalarında insan və dünya konseptləri fəlsəfi-bədii, mənəvi-poetik baxımdan təcəssüm olunmuşdur[20].

S.Əsədin yaradıcılığında müharibə mövzusu ardıcıl məna xətlərindən birini təşkil edir. Bu cəhətdən, onun bir sıra poemaları da müharibə mövzusuna həsr olunmuşdur[21]. Onlarda müharibə qəhrəmanlarının göstərdiyi rəşadətlər tərənnüm olunduğu kimi, müharibə yaddaşının mənəvi yaşantıları öz təsvirini tapmışdır

Qeyd edək ki, S.Əsədin poemalarında sovet ideologiyasının ruhu da əks olunmalı idi. Bu, dövrün tələbi idi və heç kəs yol verilmiş ideoloji normalardan kənara çıxa bilməzdi. Lakin burada əsas məsələ S.Əsədin heç vaxt sovet ideologiyasının bayağı

---

[19] Quliyeva, N.Z. Sərdar Əsədin poeziyasında uşaq dünyası // – Bakı: Bakı Dövlət universiteti, Dil və ədəbiyyat, – 2022. № 3 (120), – s. 220-224.

[20] Əsəd, S. Gülsüm (poema) // Azərbaycan müəllimi. – 1959, 08 fevral. – s. 2; Əsəd, S. Uçurum (poema) // Azərbaycan müəllimi. – 1959, 29 oktyabr. – s. 4; Əsəd, S. Ağsaçlı Qafqaz (poema) // Azərbaycan gəncləri. –1962, 12 oktyabr. –s. 1; Əsəd, S. İki hökm (poema) // Abşeron. – 1962, 19 oktyabr – 04 noyabr, № 79-83, – s. 85-88.

[21] Əsəd, S. Yer ulduzu / S.Əsəd. – Bakı: Gənclik, – 1974, – s. 90-118. Əsəd, S. Könül evi // – Bakı: Pioner, – 1975, 05 may, – s. 12.

təbliğatçısına çevrilməməsi, öz əsərlərində milli dəyərlərə də sadiq qalması, sənəti, yaradıcılığı ilə millətə, xalqa xidmət etməsidir. Onun yaradıcılığının və poemalarının müasir aktuallığının əsasında da elə bu amil durur.

Üçüncü fəslin "S.Əsədin nəsr yaradıcılığında insan və yaddaş" adlı ikinci paraqrafında göstərilir ki, sənətkarın maraqlı nəsr yaradıcılığı da vardır. Onun arxivində "Yaddaş yarpaqları" povestinin variantları, "Kəsilmiş şəkil" (1971), "Ana istisi", "Bəxşiş quzu" (1971), "Oxunmamış hekayə", "Lal Əli" ("Lal Əli poemasının nəsr variantı, 1974), satirik, yumoristik mətnlər, "Aşıq Qurbani" dastanının variantı və s. qorunmaqdadır. Çox az bir qismi çap olunmuş bu materiallar müəllifin bir nasir kimi istedadından xəbər verməklə yanaşı, onun bir yazar, yaradıcı şəxsiyyət kimi coşqun yaradıcılıq potensialının olduğunu da göstərir. Bu əsərlərə nəzər saldıqda onların, sadəcə, ötəri həvəsin məhsulu olmadığını, gerçəkliyin ciddi bədii-estetik inikası olduğunu görürük.

Tədqiqatın üçüncü fəslinin "Sənətkarın pyeslərində insan və mühit" adlanan üçüncü paraqrafında deyilir ki, S.Əsədin arxivində onun iki pyesi qorunmaqdadır. Bunlardan biri 4 pərdədən, 11 şəkildən ibarət "Həyat qapıları" adlı mənzum dram, digəri "Xoş qədəm" adlı bir pərdəli, üç şəkilli mənzum pyesdir. Hər iki əsər S.Əsədin əksər poemalarında olduğu kimi, kənd həyatından, kolxozda baş verən hadisələrdən bəhs edir. Onlar ideoloji baxımdan köhnəlsə də, həmin pyeslərin nəşr olunması həm S.Əsədin yaradıcılıq dünyasının öyrənilməsi, həm də sovet dövründə insan və sosial mühit münasibətlərinin ədəbiyyatda necə inikas olunması baxımından faydalı olardı.

Üçüncü fəslin "Ədibin publisistikasında Azərbaycan insanın obrazı" adlı dördüncü paraqrafında bildirilir ki, S.Əsədin zəngin publisistik yaradıcılığı vardır. O, çoxsaylı oçerklərin müəllifidir. Real insanlardan bəhs edən bu əsərlərdə bədiiləşdirmənin, obrazlaşdırmanın yüksək səviyyədə olduğunu görürük. Oçerklərdə rast gəldiyimiz lirik ricətlər yalnız haşiyə olaraq qalmır, onlardakı real şəxs və hadisələrin hamısı S.Əsədin bədii təxəyyül süzgəcindən keçməklə sanki canlı bir hekayəyə, povestə çevrilir. Müəllifin oçerklərinin qəhrəmanları əməkçi insanlar, zəhmət adamlarıdır.

S.Əsəd bu adamların mexaniki portretini yaratmamış, onların mənəviyyat dünyasını, psixoloji hiss, düşüncə aləmini canlandırmağa çalışmış və cəsarətlə demək olar ki, əksər hallarda buna yüksək səviyyədə olmuşdur.

Dissertasiyanın üçüncü fəslinin "Şairin tərcümə yaradıcılığında ana dilinin poetik imkanlarının təcəssümü" adlı beşinci paraqrafında göstərilir ki, S.Əsəd bədii tərcümə ilə də məşğul olmuşdur. Sənətkarın şeirlə edilmiş tərcümələri uşaq ədəbiyyatına aiddir. Onlardan biri görkəmli rus uşaq yazıçısı Aqniya Lvovna Bartonun "Kobud ayı balası" əsəri[22], digəri Canni Rodarinin "Hər sənətin öz rəngi var" əsəridir[23]. Bu tərcümələrin ən böyük bədii-estetik məziyyəti onlarda Azərbaycan dilinin poetik imkanlarından yüksək səviyyədə istifadə olunmasıdır. "Kobud ayı balası" əsərindən:

*Ayı ailəsində*
*Dalaşma olsa əgər,*
*Balaları ya kobud,*
*Ya ərköyün böyüyər*![24]

" Hər sənətin öz rəngi var" əsərindən:

*Hər sənətin*
*Öz ətri olur.*
*Bulka bişəndə*
*Təzə xəmirin*
*Xoş ətri qalır*[25].

S.Əsəd Çin yazıçısı Li Vey-Lunun "Məhəbbət "adlı hekayəsini də ana dilimizə böyük ustalıqla tərcümə etmişdir. Sənətkar tərcümə zamanı orijinalı quru, mexaniki şəkildə çevirməmiş, Çün həyatından bəhs edən bu əsəri Azərbaycan dilində bədii cəhətdən canlı şəkildə təcəssüm etdirmək istəmişdir.

---

[22] Barto, A.L. Kobud ayı balası / Tərcümə edən S.Əsəd. – Bakı: Gənclik, – 1968.

[23] Rodari, C. Hər sənətin öz rəngi var. Hər sənətin öz qoxusu var / Tərcümə edən S.Əsəd. – Bakı: Gənclik, – 1969

[24] Əsəd S. Yenə yaşayıram, mən yenə sağam: [3 clddə] / S.Əsəd. – Bakı: Şərq-Qərb, – c. 1. – 2020. – s. 806.

[25] Əsəd S. Yenə yaşayıram, mən yenə sağam: [3 cilddə] / S.Əsəd. – Bakı: Şərq-Qərb, –c.1 . – 2020. – s. 807.

Üçüncü fəslin "Ədibin filoloji tədqiqatlarının məzmun və məna xüsusiyyətləri" adlı altıncı paraqrafında müəyyənləşdirilmişdir ki, S.Əsədin əldə olan elmi əsərlərinin hamısı filologiya ilə bağlıdır. Onların əksəriyyətinin poema janrı ilə bağlı olması göstərir ki, bu məqalələr S.Əsədin vaxtilə yazmağa başladığı, lakin sonradan hansısa səbəblərdən yarımçıq qoyduğu namizədlik (fəlsəfə doktoru) dissertasiyasının mövzusu ilə bağlıdır. Sovet ədəbiyyatşünaslığının təhlil prinsip və normalarını əks etdirən bu tədqiqatlarda diqqət çəkən ən mühüm cəhət S.Əsədin klassik irs haqqındakı fikirləridir. Müəllifin fikirlərindən məlum olur ki, o, milli ədəbiyyatın tarixinə vahid ədəbi proses kimi baxmış, milli düşüncəyə sahib olan S.Əsəd qəlbinin dərinliklərində Azərbaycan sovet ədəbiyyatına sırf sovet düşüncəsinin məhsulu kimi baxmamış, bunu elmi əsərlərində açıq şəkildə ifadə edə biməsə də, ədəbiyyatımızın bütün hallarda milli köklərə bağlı olması əqidəsində olmuşdur.

Tədqiqatın **"Nəticə"** hissəsində aşağıdakı nəticələr ümumiləşdirilir:

Bədii-ədəbi yaradıcılığı XX əsrin 50-70-ci illərinə təsadüf etmiş Sərdar Əsəd irsinin şəxsiyyət, yaddaş və dünya konseptlərinin öyrənilməsinə həsr olunmuş bu tədqiqat işində aşağıdakı əsas nəticələr əldə olunmuşdur:

1. Keçən əsrin 50-ci illərinin başlanğıcında şeirlə yaradıcılığa başlamış, həmin dövrdən ölümünə qədər (1975-ci il) aramsız şəkildə yaradıcılıqla məşğul olmuş S.Əsədin irsi kəmiyyət baxımından zəngin olduğu kimi, növ-janr baxımından da zəngin olub, lirik şeir, poema, nəsr, dramaturgiya, ədəbi resenziya, məqalə, oçerk və s. kimi növ və janrları əhatə edir.

2. S.Əsədin şəxsiyyət kimi portret cizgilərinin formalaşmasında onun nəslinin stalinizm repressiyalarına məruz qalması ciddi təsir etmiş, o, sərt sovet ideoloji epoxasında milli-mənəvi dəyərlərdən heç vaxt ayrı düşməmişdir. Bu cəhəti ona millətsevər ziyalılar və sənətkarlar mühitində böyük hörmət qazandırsa da, azad ruhlu sənətkara qarşı tez bir zamanda müxtəlif basqılar, mənəvi təzyiqlər başlanmışdır. Hər bir azad ruha sahib olan ziyalını onun öz xarakterinə uyğun "yumşaq güclə" əzməyə, özünə tabe etməyə çalışan sovet məmurları S.Əsədə qarşı işsizlik metodundan istifadə

etmişlər. Yaradıcılıqla özünün narahat ruhunu ovutmağa çalışan ədib rejimə baş əyməkdənsə həyatına son verməyi qərara almışdır. Onun intiharı müasirlərinə son dərəcə pis təsir etmiş, bu ölüm günümüzə qədər unudulmamışdır.

3. Sənətkarın şəxsiyyəti və yaradıcılığının filoloji və publisistik fikir yaddaşı kontekstində öyrənilməsi nəticəsində aydın olmuşdur ki, S.Əsədin həm ədəbi müasirləri, həm də kütləvi oxucular tərəfindən maraqla qarşılanan yaradıcılığına ədəbi tənqid onun sağlığında ciddi reaksiya verməmişdir. Bunun səbəbi milli görüşlərə malik olan sənətkarın həm də haqsızlıqları qəbul etməməsi, ona qarşı "ögey" münasibət bəsləyən sovet ədəbi tənqid "məmurlarına" baş əyməməsi, mühitin təzyiqləri qarşısında bədii təxəyyül dünyasına daha çox qapanması və arxalanması olmuşdur.

Keçən əsrin 50-ci illərinin başlanğıcında yaradıcılığa başlayan şair öz əsərlərində halallığı, abadlığı, firavanlığı, qurub-yaratmağı sevən Azərbaycan insanının obrazını yaratmağa çalışmışdır. 60-cı illərdə SSRİ-də yaranmış yeni ictimai-siyasi durum – stalinizm epoxasının başa çatması, müəyyən bir nəfəs genliyinin əmələ gəlməsi bütün ölkənin ədəbi-mədəni mühitində olduğu kimi Azərbaycanda da dəyişikliklərə səbəb oldu. Adı sonralar ədəbiyyat tarixinə "60-cılar nəsli" kimi düşmüş yeni nəsil meydana gəldi. Milli görüşlərə sahib olan S.Əsəd 60-cı illər şeirinin yaradıcıları sırasında idi. O, yaranmış şəraitdən istifadə edərək, öz obrazlarının milli boyalarını biraz da qatılaşdırmağa başlayaraq daha coşqun şəkildə yaradıcılıqla məşğul olmuşdur. Zamana boyun əyməyən şair öz ölümü ilə onun üzərində sanki mənəvi qələbə qazanmağa nail oldu.

4. S.Əsədin bütün yaradıcı ömrü boyunca fasiləsiz şəkildə davam etmiş lirik şeir yaradıcılığına şəxsiyyət konsepti baxımından yanaşma göstərmişdir ki, onun lirikasının poetik məna xətlərindən birini sənətkarın şeirlə nəfəs alması, şeirin onun varlığının, həyatının bütün mənasını təşkil etməsidir. Öz varlığını şeirdən kənarda təsəvvür edə bilməyən müəllif şeir yazmağa yaşamaq və mövcud olmaq üsulu kimi yanaşmışdır. Bədii baxımdan son dərəcə zərif, estetik baxımdan son dərəcə gözəl sevgi poeziyasına sahib olan S.Əsədin bu mövzudakı şeirlərinin bütün bədii-estetik uğuru və bu gün belə öz poetik təravətini itirməməsinin səbəbi həmin şeirlərin

həqiqi sevgi hisslərinin ifadəsi ilə bağlıdır. Hətta ilk sevgisini sevdiyi qıza yox, öz şeirinə etiraf edən sənətkarın sevgi lirikasında ilk sevginin yanğısı aydın məna xətti kimi daim müşahidə olunur.

5. S.Əsədin lirikası onun şair "mən"inin bədii məzmun və ideya hüdudlarını parlaq şəkildə nümayiş etdirir. Şairin yaratdığı lirik qəhrəmanlar içərisində onun "mən" adlı bədii obrazı özünün riyasız-boyasız mahiyyətə malik olması ilə seçilir. Bu, o deməkdir ki, zamanla barışmayan S.Əsəd öz "mən"i ilə poetik dialoqunda həmişə səmimi olmuş, poeziyaya heç vaxt xəyanət etməmişdir. Bu mənada, şairin yaratdığı "mən" obrazı bir poetik nüvəni təşkil etməklə onun bütün lirik qəhrəmanlarını vahid poetik qalaktikada birləşdirir.

6. Yaddaş Sərdar Əsədin lirikasının mühüm poetik-fəlsəfi konseptidir. Sənətkarın lirikasının mənəvi bünövrəsini təşkil edən yaddaş onun sənətkar ömrünün tale nöqtələri ilə birbaşa bağlı olmuşdur. Bu tale nöqtələri istisnasız olaraq bütün hallarda vətənə, yurda, el-obaya, xalqa, millətə, ana dilinə, milli dəyərlərə, milli dilə sevgi ilə yoğrulmuş S.Əsəd ömrünün yaddaş səhifələrini çevrələyir.

Şairin lirikasında təcəssüm olunmuş yaddaşın ideya-bədii xüsusiyyətlərinin tədqiqi göstərmişdir ki, Sərdar Əsədin yaddaşı ilk növbədə dünyanı tanımaqla bağlı olmuşdur. Bu mənada, yaddaş sənətkarın lirikasının hərəkətverici qüvvəsi, enerji qaynağı olmuş, yaddaşın hər bir məqamı, hər bir oyanışı S.Əsədin lirik hisslər dünyasında bir şeirin yaranmasına səbəb olmuşdur.

7. Sovet İttifaqının tarixində ən mürəkkəb dövr olan 50-ci illərdə poeziya dünyasına qədəm qoymuş S.Əsədin yaradıcılığında 50-70-ci illərin sovet siyasi-ictimai, ədəbi-bədii, estetik-ideoloji gerçəklikləri də inikas olunmuşdur. Öz xalqına, onun mədəniyyətinə, milli adət və ənənələrinə dərindən bağlı olan gənc şair sovet ideologiyasının milli respublikalarda yaşayan xalqların, o cümlədən Azərbaycan xalqının milli varlığının inkişafında maraqlı olduğuna inanmış və bunu şeirlərində ifadə etmişdir. Lakin S.Əsədin lirik qəhrəmanları sovet boyaları ilə bərabər, həm də tipik azərbaycanlı, yəni milli həyat və məişət tərzinə, milli əxlaq və davranış normalarına, vətənin təbiətinə bağlı insanlardır. Bu baxımdan, şairin yaradıcılığında milli motivlər Azərbaycan milli kimliyini ifadə edən kodların bədii təcəssümü şəklində özünü göstərir.

8. Milli-etnik yaddaşa, Azərbaycana coşğun məhəbbətlə bağlı olan S.Əsədin yaradıcılığında onun milli düşüncələrinin öyrənilməsi baxımından onlarla şeirdən ibarət olan “Şuşada şüştər” şeirlər silsiləsi nəhəng poetik hadisədir. Erməni və alt qatda rus xislətini ifşa edən bu şeirlər Qarabağ savaşının reallıqları fonunda xüsusi elmi aktuallıq kəsb etməklə S.Əsədin milli baxımdan nə qədər uzaqgörən olduğunu təsdiq edir.

Şairin lirikasında milli yaddaş konsepti milli-etnoqrafik dəyərlərlə bağlı şeirlərdə parlaq bədii-estetik məzmun və formada təcəssüm olunmuşdur. Azərbaycan milli-etnoqrafik dünyası ilə bağlı olan bu obrazlar (tütək, tar, yastı balaban, qalayçı, nal, yel atı və s.) S.Əsədin lirikasında milli həyat və məişətin dekorativ ünsürləri olaraq qalmamış, bilavasitə Azərbaycan insanının milli-mənəvi aləmi kimi tərənnüm olunmuşdur.

9. S.Əsədin lirikasında ana dili yaddaşı xüsusi məna xətti kimi çıxış edir. Dilə təkcə ünsiyyət vasitəsi kimi baxmayan sənətkar ana dilini xalqın, millətin tarixinin mənəvi yaddaş xəzinəsi hesab etmişdir. Şairin bu mövzudakı şeirlərində tərənnüm olunan əsas ideyalara görə, bir xalqın milli kimliyinin bütün keçmişi və bu günü onun dilində yaşadığı kimi, gələcəyi də ana dilinin gələcəyinə bağlıdır; dilin varlığı – xalqın milli varlığıdır, dil yaşayacaqsa – xalqın da milli kimliyi daim var olacaqdır.

10. Sənətkarın lirikasında dünya konseptinin iki əsas təzahür forması vardır: təbiət dünyası və Azərbaycan dünyası. Bu cəhətdən, şair üçün dünya bir məkan kimi ana təbiətdən və Azərbaycandan ibarət olmuşdur. Lakin poetik dünyasının məkan miqyası yalnız Azərbaycanla məhdudlaşmayan sənətkar üçün dünya bütün əzəməti, genişliyi və nəhəngliyi ilə, sadəcə, onun ana yurdundan – Azərbaycandan başlanmışdır.

11. S.Əsədin qırxdan yuxarı əsəri əhatə edən poema yaradıcılığı ideya-məzmun baxımından qurucu insan şəxsiyyətinin mənəviyyat dünyasının tərənnümü, insan və dünya konseptlərinin fəlsəfi-bədii, mənəvi-poetik təcəssümü, müharibə yaddaşının mənəvi yaşantıları kimi dörd istiqaməti əhatə edir. Sənətkarın poemalarında insan və dünya konseptləri yüksək fəlsəfi-bədii, mənəvi-poetik şəkildə təcəssüm olunmuşdur. Onun poemalarında həyat və ölüm

konseptləri kəmiyyət və bədii-estetik məzmun baxımından zəngin metaforik obrazlar vasitəsilə inikas olunmuşdur. Bu əsərlərdə gənc sənətkarın 50-ci illərdə bilavasitə ona qarşı olan təzyiqlər qarşısında keçirdiyi mənəvi sarsıntılar da ifadə olunmuşdur.

12. S.Əsədin müharibə yaddaşı mövzusunda yazdığı poemalarda müharibə qəhrəmanlarının göstərdiyi igidliklər tərənnüm olunduğu kimi, müharibə yaddaşının mənəvi yaşantıları da təsvir olunmuşdur. Sənətkarın yaratdığı qəhrəman obrazlarında Azərbaycan qəhrəmanlıq ruhu üçün xarakterik olan keyfiyyətlər də təcəssüm etdirmişdir. Uşaqların həyatı, dünyası ilə bağlı irili-xırdalı poemalarının qəhrəmanları "tipik sovet uşağının" obrazı olmaqla bərabər, eyni zamanda Azərbaycan xalqının milli-mənəvi dəyərlərini özündə təcəssüm etdirən, torpağa, yurda, vətənə, xalqa, ana dilinə və ana təbiətə bağlı olan Azərbaycan balalarıdır. Həmin obrazlarda Koroğlunun, "Dədə Qorqud" dastanındakı Oğuz igidlərinin, Təpəgözü öldürüb eli məhv olmaqdan xilas edən Basatın, nağıl qəhrəmanlarının, divlərə, əjdahalara qalib gələn Məlikməmmədin xarakter cizgiləri də müşahidə olunur.

13. S.Əsədin az bir qismi çap olunmuş nəsr yaradıcılığı (povest, hekayələr, satirik-yumoristik mətnlər və s.) müəllifin bir nasir kimi istedadından xəbər verməklə yanaşı, onun bir yazar, yaradıcı şəxsiyyət kimi coşqun yaradıcılıq potensialının olduğunu da göstərir. Bu əsərlərə nəzər saldıqda onların, sadəcə, ötəri həvəsin məhsulu olmadığını, gerçəkliyin ciddi bədii-estetik inikası olduğunu görürük. Ədibin nəsr əsərləri ideya-məzmun baxımından onun lirikası və poema yaradıcılığı ilə yaxından səsləşir. Hətta elə əsərləri vardır ki, eyni mövzunun poema və hekayə variantlarıdır. S.Əsədin onu düşündürən mövzuları müxtəlif janrlarda işləməsi sənətkarın həmin mövzuları müxtəlif janrların verdiyi poetik imkanlardan istifadə etməklə bədii-estetik cəhətdən daha dərindən və daha dolğun işləmək istəyi ilə bağlı idi.

Arxivində qorunub qalmış iki dram əsəri ("Həyat qapıları" adlı mənzum dram və "Xoş qədəm" adlı mənzum pyes) sənətkarın əksər poemalarında olduğu kimi, kənd həyatından, kolxozda baş verən hadisələrdən bəhs edir. Bu əsərlərdə obrazlar müsbət və mənfi olmaqla iki düşərgəyə bölünür. Müsbət qəhrəmanlar kənd

təsərrüfatında vicdanla çalışanlar, halal, mərd, ləyaqətli insanlar olduğu halda, mənfi qəhrəmanlar əliəyri, haramxor insanlardır. Bunlar arasında olan konflikt dramın süjetini maraqlı etməklə bərabər, onun canlı, dinamik olmasını da təmin edir.

14. Zəngin oçerk yaradıcılığına sahib olan S.Əsədin bu əsərlərinin səciyyəvi üslubu xüsusiyyəti onlarda bədiiləşdirmənin, obrazlaşdırmanın yüksək səviyyədə olmasıdır. Oçerklərin əvvəlindəki lirik ricətlər təkcə haşiyə olaraq qalmamış, onlardakı real şəxs və hadisələrin hamısı S.Əsədin bədii təxəyyül süzgəcindən keçməklə həmin əsərləri sanki bir hekayəyə, povestə çevirmişdir. Müəllif oçerklərdə əməkçi insanlar, zəhmət adamlarının mənəviyyat dünyasını, psixoloji hiss, düşüncə aləmini canlandırmağa çalışmış və buna əksər hallarda nail olmuşdur.

S.Əsədin bədii tərcümələri onun bu mətnlər üzərində necə böyük istedad və məsuliyyətlə çalışdığını aydın şəkildə göstərir. Həmin əsərlərin ən böyük bədii-estetik məziyyəti onlarda Azərbaycan dilinin poetik imkanlarından yüksək səviyyədə istifadə olunmasıdır.

15. S.Əsədin əldə olan elmi yaradıcılığının hamısı filologiya ilə bağlıdır. Onların əksəriyyətinin poema janrı ilə bağlı olması göstərir ki, bu məqalələr S.Əsədin vaxtilə yazmağa başladığı, lakin sonradan hansısa səbəblərdən yarımçıq qoyduğu namizədlik (fəlsəfə doktoru) dissertasiyasının mövzusu ilə bağlıdır. Sovet dövrü ədəbi təhlilinin norma və prinsipləri əsasında yazılmış həmin məqalələrdə S.Əsədin tədqiqatçı kimi fərdi ədəbiyyatşünaslıq görüşləri də inikas olunmuşdur. Bu cəhətdən, ədib bədii əsərlərdə milli-mənəvi varislik, klassik irsə bağlılıq məsələlərinə mühüm önəm vermiş, buna ədəbiyyatımızın milli ruhunun sarsılmazlığı kimi yanaşmışdır.

**Dissertasiyanın əsas nəticələri müəllifin aşağıdakı məqalələrində əks olunmuşdur:**

1. Sərdar Əsədin yaradıcılıq dünyası // IV Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu. – Niğde: – 26-28 aprel, – 2017, I cild, – s. 605-608.

2. Azərbaycan şairi Sərdar Əsədin yaradıcılığında milli-etnoqrafik obrazlar // V Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu. I cild. – Almatı: – 11-13 oktyabr, – 2018, – s. 497-500.

3. Sərdar Əsədin yaradıcılığında məhəbbət motivləri // – Bakı: Filologiya məsələləri, – 2018. № 20, – s. 314-320.

4. Sərdar Əsəd yaradıcılığı epoxal-ideoloji yanaşma müstəvisində // – Bakı: Filologiya məsələləri, – 2019. № 15, – s. 345-349.

5. Sərdar Əsədin yaradıcılığında "Qarabağ təbiəti" motivləri // – Bakı: Azərbaycan Dövlət Pedaqoji Universitetinin xəbərləri, – 2021. №1, – s. 40-48.

6. XX Yüzyıl Azerbaycan Şairi Serdar Esad`ın Sanatında Sovyet Gerçeklikleri ve Millilik // – Almaniya: Türklerin Dünyası Dergisi (Zeitschrift für die Welt der Türken), – 2021. No. 3, – s. 139-151.

7. Sərdar Əsədin yaradıcılığında zamanın bədii obrazı // "Müstəqil Azərbaycan: gerçəklik işığında" Respublika Konfransı, – Bakı: – 25-26 may, – 2022, – s. 118-122.

8. Sərdar Əsədin "Şuşada şüştər" şeirlər silsiləsində milli yaddaş problemi // IV Beynəlxalq Novruz Konfransı, – Bakı: – 18-21 mart, – 2022, – s. 543-550.

9. Sərdar Əsədin poeziyasında uşaq dünyası // – Bakı: Dil və ədəbiyyat, – 2022. № 3 (120), – s. 220-223.

10. Sərdar Əsədin ömür yolunun mənəvi-psixoloji cizgiləri // – Bakı: Elmi xəbərlər. Qərbi Kaspi Universiteti, – 2022. № 3, – s. 22-27.

11. Личность и творчество Азербайджанского поэта XX века Сердара Еседа в филологической и публицистической памяти // – Część: Colloquium-journal, – 2023. №4 (163), – c. 31 – 36.

Dissertasiyanın müdafiəsi **6 sentyabr** 2024-cü il tarixində saat **$14^{00}$**-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, İstiqlaliyyət küçəsi 53. AZ 1001.
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Dissertasiya ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 5 avqust 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 26.07.2024
Kağız formatı: 60x84 1/16
Həcm: 38 839
Tiraj: 100